# MÜSTƏQİLLİK DÖVRÜNDƏ CƏNUBİ QAFQAZ RESPUBLİKALARININ ƏHALİSİ

**L.L.HƏSƏNOVA**
*Bakı Dövlət Universiteti*

XX yüzilliyin 80-cı illərinin sonu – 90-cı illərinin əvvəllərində baş verən siyasi proseslər [Bax: 6-7], qanlı hadisələr bütövlükdə SSRİ-də, sonra isə postsovet məkanında demoqrafik şəraiti kəskin şəkildə dəyişdi. Müstəqillik uğrunda gedən mübarizə şəraitində keçmiş «Qardaş sovet respublikalarında» milli-etnik qarşıdurmalar gücləndi [8, s.200]. 80-cı illərin sonunda Cənubi Qafqaz respublikaları bitib-tükənməyən etnik qarşıdurmanın önündə gedirdi. Bu da çoxdan yaddan çıxmış qaçqın, məcburi köçkün, kütləvi miqrasiya hallarını ön plana çəkdi.

«Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı»nda göstərildiyi kimi, ... 1990-1994-cü illərdə SSRİ-nin dağılması, ölkənin müharibə vəziyyətində olması, daxili qeyri-sabitlik və iqtisadiyyatın böhran keçirməsi ölkədə miqrasiyanın, o cümlədən əhalinin məcburi yerdəyişməsini gücləndirmişdi [1, s.3201]. Müxtəlif qüvvələr tərəfindən istiqamətləndirilən etnik konfliktlər Cənubi Qafqazın başqa respublikalarında da demoqrafik durumu kəskin şəkildə dəyişdi. Ermənistan SSR rəhbərliyinin hələ sovet dövründə Ermənistanı monoetnik respublikaya çevirmək siyasəti öz «bəhrəsini» vermişdi. Belə ki, SSRİ-nin mövcudluğu dövründə keçirilən əhalinin sonuncu, 1989-cu il siyahıyaalması zamanı Ermənistan SSR əhalisinin 93,3%-ini ermənilər təşkil edirdilər [5, s.136]. Beləliklə, on beş Sovet respublikası içərisində ermənilər, titul xalqların respublika əhalisi içərisində payına görə, birinci yerdə dururdu. Digər tərəfdən Ermənistanın Dağlıq Qarabağı Azərbaycandan qoparmaq məqsədilə müharibəyə başlaması nəticəsində Ermənistanda yaşayan 243682 soydaşımız qovularaq Azərbaycana pənah gətirdi. Eyni zamanda ermənilərin törətdiyi hərbi münaqişə nəticəsində Azərbaycanda yaşayan 300 mindən çox erməni respublikanı tərk edərək Ermənistana getməyə məcbur oldu*. Düzdür onların çoxu sonralar başqa ölkələrə emiqrasiya etdi, ancaq bu gün bunlar və Ermənistanda olan qeyri-stabil vəziyyət və ağır iqtisadi durum demoqrafik vəziyyəti kökündən dəyişmişdi.

Gürcüstandakı demoqrafik vəziyyət Cənubi Qafqazın başqa respublikalarından heç də yaxşı deyildi. 1991-ci ilin yazında Z.Qamsaxur-

* 1989-cu il siyahıyaalması zamanı Azərbaycanda 390,5 min nəfər erməni qeydə alınmışdır. Əlbəttə, SSRİ-nin dağılması və Qarabağ savaşı bu siyahıyaalmanın nəticələrinə ciddi təsir göstərmişdir. Belə ki, Azərbaycandan köçənlərin əksəriyyəti əvvəlki yaşayış yerlərində qeydə alınmışdır (bax: L.L.Həsənova, Göstərilən əsəri, s. 140).

diyanın muxtar qurumların ləğvi haqqındakı bəyanatı respublikada mövcud olan ağır vəziyyəti daha da gərginləşdirdi. Təsadüfü deyil ki, həmin dövrdə Gürcüstanda yaşayan xeyli azərbaycanlı öz ata-baba yurdunu tərk edib, Azərbaycana və digər respublikalara köçmüşdü.

XX əsrin əvvəllərindən dəfələrlə Gürcüstandan ayrılmaq məsələsini gündəmə gətirən Abxaziyada yenidən separatizm meylləri gücləndi. 1992-ci ilin avqustunda bu gürcü və abxazlar arasında silahlı münaqişəyə gətirib çıxardı. Suxuminin bombalanması nəticəsində 200-ə qədər adam öldü, 400 nəfər yaralandı. Hərbi münaqişə nəticəsində xeyli adam öz ölkəsində köçkünə çevrildi. 90-cı illərin əvvəllərində Gürcüstanın başqa bir muxtar qurumunda da – Cənubi Osetiyada da buna oxşar hadisələr baş verdi. 1990-1992-ci illərdə burada baş verən etnik münaqişə də qaçqın və məcburi köçkün problemini daha da kəskinləşdirdi. Rəsmi məlumata görə hazırda Gürcüstanda qaçqın və məcburi köçkünlərin sayı 280 mini ötüb keçmişdir. Baş verən hadisələr bilavasitə əhali ilə bağlı olduğundan Gürcüstanda demoqrafik durumu daha da gərginləşdirmişdir [9, s. 494-499].

Cənubi Qafqaz Respublikalarının demoqrafik durumunun ən mühüm göstəricisi əhalinin say binamikasıdır. Cədvəl №1-də Azərbaycan Respublikası Mərkəzi Statistika Komitəsinin, MDB-nin dövlətlər arası Statistika Komitəsinin buraxdığı statistik külliyyatlarda verilmiş məlumatlar əsasında 1990-2000-ci illərdə Cənubi Qafqaz respublikalarında əhalinin say dinamikası əks olunmuşdur [2, s.123; 3, s.19, 115; 4, s. 15-16; 10, s. 115, 11, s. 73; 13, s. 32].

**Cədvəl 1**

**Cənubi Qafqaz Respublikaları əhalisinin say dinamikası (1990-2000-ci illər)**

| İllər | Azərbaycan əhali (min nəfərlə) | | | Ermənistan əhali (min nəfərlə) | | | Gürcüstan əhali (min nəfərlə) | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | cəmi | artma(+) azalma (-) mütləq | artma(+) azalma (-) %-lə | cəmi | artma(+) azalma (-) mütləq | artma(+) azalma (-) %-lə | cəmi | artma(+) azalma (-) mütləq | artma(+) azalma (-) %-lə |
| 1990 | 7131,9 | +110,7 | +1,5 | 3501,5 | +59,6 | +1,7 | 5434,5 | +8,1 | +0,14 |
| 1991 | 7218,5 | +86,6 | +1,2 | 3575,9 | +74,4 | +2,1 | 5420,5 | -1,4 | -0,02 |
| 1992 | 7324,5 | +105,6 | +1,5 | 3649,3 | +73,4 | +2,0 | 5404,5 | -15,7 | -0,28 |
| 1993 | 7440,0 | +115,9 | +1,6 | 3722,6 | +73,3 | +2,0 | 5390,9 | -13,6 | -0,25 |
| 1994 | 7549,6 | +109,6 | +1,5 | 3742,5 | +19,9 | +0,5 | 5375,1 | -15,8 | -0,22 |
| 1995 | 7643,5 | +93,9 | +1,2 | 3753,4 | +10,9 | +0,2 | 5373,4 | -1,7 | -0,03 |
| 1996 | 7726,2 | +72,7 | +0,9 | 3766,7 | +13,3 | +2,0 | 5381,0 | +7,6 | +0,14 |
| 1997 | 7799,8 | +77,0 | +0,9 | 3781,2 | +14,5 | +0,35 | 5394,9 | +13,9 | +0,25 |
| 1998 | 7876,7 | +76,9 | +0,9 | 3791,0 | +9,8 | +0,25 | 5402,1 | +7,2 | +0,13 |
| 1999 | 7953,4 | +76,7 | +0,9 | 3798,2 | +7,2 | +0,18 | 5445,0 | +42,9 | +0,78 |
| 2000 | 8016,2 | +62,8 | +0,7 | 3805,0 | +6,8 | +0,17 | ... | ... | ... |

Cədvəldən göründüyü kimi, 1990-2000-ci illərdə Cənubi Qafqazın hər üç respublikasında əhalinin artım səviyyəsi xüsusi çəki etibarilə azalmağa doğru getmişdir. Bu proses özünü Gürcüstanda daha qabarıq şəkildə göstərmişdir. Belə ki, 1991-1995-ci illərdə ölkədə baş verən hadisələrlə bağlı olaraq Gürcüstan əhalisi nəinki artmamış, əksinə 0,02-0,03% azalmışdır. 1996-ci ildən 2000-ci ilədək Gürcüstan əhalisinin – 0,14%-dən +0,78%-dək artması müşahidə olunur.

Gürcüstandan sonra ən az əhali artımı Ermənistandadır. 1991-ci ildə Ermənistan əhalisi 2,1% artdığı halda, 1995-ci ildə bu artım yalnız

0,2% olmuşdur. 1996-2000-ci illər arasında Ermənistan əhalisi çox cüzi 0,35-0,17% artmışdır. Faktlardan da göründüyü kimi, Cənubi Qafqaz Respublikaları arasında ən yüksək əhali artımı Azərbaycan Respublikasındadır. Belə ki, 1991-1995-ci illərdə Azərbaycanda əhali artımı demək olar ki, sabit olmuş və 1,2-1,2% arasında tərəddüd etmişdir. 1996-cı ildən başlayaraq Azərbaycanda da əhali artımı aşağı düşməyə başlayır. 1996-cı ildə Azərbaycan əhalisi 0,9, 2000-ci ildə isə 0,7% artmışdır. Lakin faktlar da göstərir ki, Azərbaycanda əhali artımı bütövlükdə azalsa da, bu artım sabit olmuşdur.

1991-2000-ci illərdə ən çox əhali artımı Azərbaycanda 1993-cü ildə (1,6%), Ermənistanda 1991-ci ildə (2,1%), Gürcüstanda isə 1999-cu ildə (0,78%) müşahidə edilmişdir. Həmin illərdə ən az əhali artımı Azərbaycan (+0,7%) və Ermənistanda (+0,17%) 2000-ci ildə, Gürcüstanda isə (-0,28%) 1992-ci ildə olmuşdur.

Onu da qeyd edək ki, 2001-2005-ci illərdə Azərbaycanda əhalinin artımı, əvvəlki beş ildə olduğu kimi, sabit olmuş və hər il 0,7-0,9% artdığı halda, Ermənistanda artım aşağı düşmüş, Gürcüstanda isə xeyli azalmışdır.

Cənubi Qafqaz Respublikalarında əhalinin artım sürətinə ciddi təsir göstərən ən mühüm demoqrafik proseslər – doğum, olüm, təbii artım olduğundan, onları nəzərdən keçirək (Cədvəl №2) [4, s.17-19; 13, s.41; 2, s.123; 3, s. 115]. Göründüyü kimi, Cənubi Qafqazın hər üç respublikasında müstəqillik ərəfəsindəki rəqəmlə müqayisədə XX əsrin sonu və XXI əsrin əvvəllərində doğulanların sayı kəskin şəkildə aşağı düşür. Belə ki, 1990-cı ildə əhalinin hər 1000 nəfərinə düşən doğulanlar Azərbaycanda 26,3, Ermənistanda 22,5, Gürcüstanda isə 17,0 nəfər olduğu halda, 2005-ci ildə xeyli azalaraq müvafiq olaraq 17; 12; 11 nəfər olmuşdur. Bütün dövrlərdə olduğu kimi, bu göstəriciyə görə ən yüksək rəqəm Azərbaycana, ən aşağı rəqəm isə Gürcüstana aiddir. On beş il ərzində ən yüksək doğum səviyyəsi, 1991-ci ildə Azərbaycanda (27,0) və Ermənistanda (22,5), 1990-cı ildə Gürcüstanda (17,0) qeydə alınmışdır. Bu müddət ərzində ən aşağı doğum səviyyəsi Azərbaycan (14,0) və Gürcüstanda (9,0), 2003-cü ildə, Ermənistanda (10,0) isə 2004-cü ildə müşahidə olunur.

Demoqrafik proseslərə təsir göstərən ən mühüm faktorlardan biri də ölümdür. Doğumdan fərqli olaraq müstəqillik dövründə Cənubi Qafqaz respublikaları əhalisi içərisində əhalinin hər 1000 nəfərinə düşən ölənlərin sayında (ölüm əmsalı) elə bir ciddi dəyişiklik olmamışdır. Müstəqilliyin ilk illərində (1991-1994-ci il) Azərbaycanda ölüm əmsalı artır. Bu Qarabağ müharibəsi və ölkədə gedən ictimai-iqtisadi və siyasi proseslərlə bağlıdır. 1995-ci ildən etibarən Azərbaycanda ölüm əmsalı aşağı düşür və 2005-ci ildə (6 nəfər) 1990-cı il səviyyəsilə bərabərləşir (6,1 nəfər).

Azərbaycandan fərqli olaraq Ermənistanda müstəqilliyin 15 ili ərzində əhalinin hər 1000 nəfərinə düşən ölənlərin sayında sabitləşmə görmürük. Belə ki, 1992-1993-cü illərdə Ermənistanda ölüm əmsalı (müvafiq olaraq 7,0-7,4) artır, 1994-2001-ci illərdə azalır (6,6-6,0), 2002-2003-cü illərdə isə yenidən artaraq 8-9 nəfər arasında tərəddüd edir.

Gürcüstan Respublikasında ölüm əmsalı 1990-1993-cü illərdə (8,4-10,1 nəfər) artır, 1994-1996-cı illərdə azalır (8,6-6,3 nəfər), 1997-2005-ci illərdə (7,7-11 nəfər) isə yenidən artmağa başlayır. Cənubi Qafqaz

respublikaları arasında ən aşağı ölüm əmsalı Azərbaycanda, ən yüksək ölüm əmsalı isə Gürcüstanda təsadüf edilmişdir. Belə ki, müstəqillik dövründə ən yüksək ölüm səviyyəsi 2004-2005-ci illərdə Gürcüstanda (11,0), ən aşağı ölüm əmsalı isə 1998-ci ildə Azərbaycanda (5,9) müşahidə edilmişdir.

**Cədvəl 2**

**Cənubi Qafqaz respublikaları arasında əhalinin təbii hərəkəti (müstəqillik ərəfəsində və dövründə)**

| illər | respublikalar | Əhalinin hər 1000 nəfərinə | | |
|---|---|---|---|---|
| | | doğulanların sayı | ölənlərin sayı | təbii artım |
| 1990 | Azərbaycan | 26,3 | 6,1 | 20,2 |
| | Ermənistan | 22,5 | 6,2 | 16,3 |
| | Gürcüstan | 17,0 | 8,4 | 8,6 |
| 1991 | Azərbaycan | 27,0 | 6,3 | 20,7 |
| | Ermənistan | 21,6 | 6,5 | 15,1 |
| | Gürcüstan | 16,3 | 8,5 | 7,8 |
| 1992 | Azərbaycan | 25,2 | 7,1 | 18,1 |
| | Ermənistan | 19,2 | 7,0 | 12,2 |
| | Gürcüstan | 14,9 | 9,6 | 5,3 |
| 1993 | Azərbaycan | 24,2 | 7,3 | 16,9 |
| | Ermənistan | 15,8 | 7,4 | 8,4 |
| | Gürcüstan | 12,6 | 10,1 | 2,5 |
| 1994 | Azərbaycan | 21,4 | 7,4 | 14,0 |
| | Ermənistan | 13,7 | 6,6 | 7,1 |
| | Gürcüstan | 10,7 | 8,6 | 2,1 |
| 1995 | Azərbaycan | 19,1 | 6,8 | 12,3 |
| | Ermənistan | 13,0 | 6,6 | 6,4 |
| | Gürcüstan | 11,6 | 7,8 | 3,8 |
| 1996 | Azərbaycan | 17,1 | 6,4 | 10,7 |
| | Ermənistan | 12,8 | 6,6 | 6,2 |
| | Gürcüstan | 9,9 | 6,3 | 3,6 |
| 1997 | Azərbaycan | 17,4 | 6,2 | 11,2 |
| | Ermənistan | 11,6 | 6,3 | 5,3 |
| | Gürcüstan | 10,7 | 7,7 | 3,0 |
| 1998 | Azərbaycan | 15,7 | 5,9 | 9,8 |
| | Ermənistan | 10,4 | 6,1 | 4,3 |
| | Gürcüstan | 9,1 | 7,6 | 1,5 |
| 2003 | Azərbaycan | 14,0 | 6 | 8 |
| | Ermənistan | 14,0 | 8 | 6 |
| | Gürcüstan | 9,0 | 9 | 0 |
| 2004 | Azərbaycan | 16,0 | 6 | 10 |
| | Ermənistan | 10,0 | 8 | 2 |
| | Gürcüstan | 11,0 | 11 | 0 |
| 2005 | Azərbaycan | 17 | 6 | 11,0 |
| | Ermənistan | 12 | 9 | 3 |
| | Gürcüstan | 11 | 11 | 0 |

Doğum və ölüm kimi çox mühüm demoqrafik proseslər Cənubi Qafqaz respublikaları əhalisinin təbii artımına ciddi təsir göstərmişdir. Müstəqillik dövründə Cənubi Qafqazın hər üç dövlətində təbii artım kəskin şəkildə aşağı düşmüşdür. 1990-2005-ci illər ərzində əhalinin hər 1000 nəfərinə düşən təbii artım Azərbaycanda 20,2-dən 11,0-a, Ermənistanda 16,3-dən 3,0-a, Gürcüstanda isə 8,6-dan 0-a düşmüşdür. Başqa sözlə, on beş il ərzində əhalinin təbii artımı Azərbaycanda 1,8, Ermənistanda 5,3, Gürcüstanda isə 8,6 dəfə aşağı düşmüşdür. Əhalinin təbii ar-

tımının ən az azalmasına Azərbaycanda, ən kəskin azalması isə Gürcüstanda müşahidə edilmişdir. Artıq 3-4 ildir ki, Gürcüstanda doğulanlarla ölənlərin sayı bərabərləşmiş və əhali təbii cəhətdən artmamışdır. Tədqiq edilən illər ərzində ən aşağı təbii artım Azərbaycanda 2003-cü (8,0), Ermənistanda 2004-cü (2,0), Gürcüstanda isə 2003-2005-ci (0) illərdə təsadüf olunur. Əhalinin ən yüksək təbii artımı Azərbaycanda 1991-ci (20,7), Ermənistanda 1990-cı (16,3), Gürcüstanda isə 1990-cı (8,6) ildə olmuşdur.

Yuxarıdakılardan göründüyü kimi SSRİ-nin dağılması, etnik savaşlar və bir sıra ictimai-iqtisadi, siyasi proseslər Cənubi Qafqaz respublikalarında demoqrafik vəziyyətə ciddi təsir göstərmişdir. Bunun nəticəsində də doğum, ölüm, təbii artım və başqa demoqrafik proseslərdə mənfi meyllər diqqəti cəlb etməkdədir. Həmin meyllərin qarşısını almaq üçün kompleks tədbirlərin hazırlanması və həyata keçirilməsi vacibdir. Faktların müqayisəli təhlili göstərir ki, Cənubi Qafqaz respublikaları içərisində ən yaxşı demoqrafik göstəricilər Azərbaycan Respublikasındadır.

## QEYDLƏR


1. Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı // Azərbaycan Respublikasının Qanunvericilik toplusu, 2004, №11, s. 3198-3224.
2. Azərbaycan əhalisi 2004. Bakı, 2004.
3. Azərbaycan əhalisi 2005. Bakı, 2005.
4. Azərbaycan və Müstəqil Dövlətlər Birliyi. Bakı, 1997.
5. Həsənova L.L. Azərbaycan əhalisi XX yüzilliyin ikinci yarısında. Bakı, 2003.
6. Məmmədov Ə. Müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə. Bakı, 1999.
7. Sultanov O.B. XX əsrin 80-cı illərinin sonu, 90-cı illərinin əvvəllərində Azərbaycanda siyasi mübarizə. Bakı, 1996.
8. Абасов Али. Демографические процессы и анализ гендерной ситуации в Азербайджане // Центральная Азия и Кавказ. Журн., 2001, №2 (14).
9. Гусейнова И. История народов Кавказа (новый и новейший периоды). Баку, 2006.
10. Содружество Независимых Государств в 1998 году. М., 1999.
11. Содружество Независимых Государств в 1999 году. М., 2000.
12. Содружество Независимых Государств в 2005 году. М., 2006.
13. Статистический ежегодник Южно-Кавказских стран. Армения, Азербайджан, Грузия. Б/м, Б/и, 2000.


## НАСЕЛЕНИЕ ЮЖНОГО КАВКАЗА В ПЕРИОД НЕЗАВИСИМОСТИ


Л.Л.ГАСАНОВА


## РЕЗЮМЕ


Распад Советского Союза в конце 80-х – начале 90-х годов XX века и борьба республик Южного Кавказа за независимость, этнические противостояния и другие события в норме изменили сформировавшуюся в советское время демографическую ситуацию. Усиление сепаратизма в Нагорном Карабахе, Абхазии и Южной Осетии, стали причиной переселения сотен тысяч людей с родных мест проживания, и превращение их

в беженцев на своей Родине. Сложившаяся ситуация в первую очередь сказалась на воспроизводстве населения и во всех трех республиках, естественный прирост очень резко сократился. В целом естественный прирост на каждую тысячу населения в 1990-2005 году, соответственно, сократился: в Азербайджане 1,8 раза, Армении 5,3, Грузии 8,6 раза. Для сравнения можно отметить, что в период независимости самый высокий прирост населения был в Азербайджане, а самый низкий прирост населения был отмечен в Грузии.

## THE POPULATION OF THE SOUTHERN CAUCASIAN REPUBLICS DURING THE YEARS OF INDEPENDENCE

**L.L.HASANOVA**

### SUMMARY

The fall of the former Soviet Union to the end of the 80 th and the beginning of 90 th of the XXc and the struggle of the republics of the Southern Caucasian Republics for the independence the ethnic opposition and the others in the norm could change the formulated in the time of the Soviet Union the demographical situation. The strengthening of the separatism in Nagorniy Karabakh, Abkhazia, the Southern Osetia became the reason for the migration of the population of hundreds of thousands of people from their native places of living and their transformation into the refugees in their own lands. The existing situation firstly showed itself on the reproduction of the population and in all these three republics natural increase of population could sharply decrease. In the whole natural increase to every thousand population in 1990-2005 could correspondingly be decreased of course: in Azerbaijan 1,8 times, Armenia 5,3 times, Georgia 8,6 times. For comparison can be noted that in the time of independence the highest increase of population was in Azerbaijan, but the least increase of population was in Georgia.